

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 86 (22.997)

9 may 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## S.Z.Şahverdiyevin Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

Səbuhi Zəhmət oğlu Şahverdiyev Naxçıvan Muxtar Respublikasının prokuroru təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 may 2018-ci il*

## Naxçıvan Dövlət Universitetində yaradıcılıq müsabiqəsinə yekun vurulub



***Mayın 8-də Naxçıvan Dövlət Universitetində keçirilən "Heydər Əliyev yolu Azərbaycanın əbədi müstəqillik yoludur" adlı yaradıcılıq müsabiqəsinin mükafatlandırma mərasimi olub.***

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov tədbirdə çıxış edərək ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş müsabiqənin əhəmiyyətini diqqətə çatdırıb. Qeyd olunub ki, ulu öndər Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Milli dövlətçilik tariximizin ən şanlı və parlaq səhifələri ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə yazılıb. Bu kimi müsabiqələrin təşkil edilməsində əsas məqsəd tələbəgənclərdə vətənpərvərlik hisslərini daha da gücləndirmək, milli dəyərlərimizə, mədəniyyətimizə, incəsənətimizə hörmət ruhunda tərbiyə etmək, onların bədii-estetik səviyyəsini yüksəltmək, həmçinin ayrı-ayrı sahələr üzrə istedadlı gənclərin üzə çıxarılaraq qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmaqdır.

Seymur Talıbov fərqlənən tələbələri təbrik edib və onları bundan sonrakı müsabiqələrdə daha fəal olmağa çağırıb.

Qeyd edək ki, müsabiqəyə ulu öndərin həyatını və dövlətçilik fəaliyyətini əks etdirən rəsmlərin, bədii tikmə, toxuma, ağac üzərində oyma, şəbəkə və misgərlik nümunələrinin foto və videogörüntüləri, eləcə də ulu öndərə həsr olunmuş mahnılar təqdim olunmuşdur. Təqdim olunan yaradıcılıq nümunələrindən 13-ü seçilərək universitetin "İnstagram" səhifəsində yerləşdirilmişdir.

Münsiflərin rəyinə əsasən İnstrumental ifaçılıq üzrə II kurs magistr Aysel Eminli fleytada ifa etdiyi "Heydər atam" mahnısı ilə müsabiqənin qalibi olub. Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Günel Həsənova bədii tikmə janrında hazırladığı kompozisiya ilə II, Riyaziyyat-informatika müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Qızıllı Mehdiyeva isə ulu öndərin bədii tikmə janrında hazırladığı portreti ilə III yerlərə layiq görülüblər.

Qaliblərə Naxçıvan Dövlət Universitetinin diplomları və pul mükafatları təqdim edilib. Qeyd edək ki, müsabiqəyə təqdim olunan digər yaradıcılıq nümunələri də mükafatlandırılıb.

Sonda müsabiqənin qalibi olmuş əsər səsləndirilib.

***Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsi***

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi olub

"Naxçıvan" Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik strategiyası və varislik" mövzusunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.



Lektoriyanı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarix boyu yetişdirdiyi nadir və bənzərsiz şəxsiyyət kimi milyonlarla insanın qəlbində əbədi yaşayır.

Lektoriyada AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik strategiyası və varislik" mövzusunda məruzəsi dinlənilib. Vurğulanıb ki, ulu öndər tərəfindən müəyyənləşdirilən daxili və xarici siyasət bu gün Onun layiqli davamçısı olan Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Nuray ƏSGƏROVA**

## Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir

***AMEA Naxçıvan Bölməsində "Heydər Əliyev: siyasi liderlikdən ümummilli liderliyə" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirmişdir ki, bu il xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə muxtar respublikamızda müxtəlif tədbirlər keçirilir. "Heydər Əliyev: siyasi liderlikdən ümummilli liderliyə" mövzusunda keçirilən elmi konfrans da dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə siyasi liderlikdən ümummilli liderliyə gedən yolda misilsiz xidmətlərinə bir daha nəzər salmaq məqsədi daşıyır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov elmi konfransda çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"na uyğun olaraq muxtar respublikada bir sıra tədbirlər keçirilir.



Tədbirlər Planına əsasən ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeir və mahnı müsabiqələri, Türkiyə Respublikasının Bursa Dövlət Simfonik Orkestrinin konserti keçirilmişdir. Hazırda "Heydər Əliyev kuboku" uğrunda idman yarışları, "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı, Heydər Əliyev lektoriyalarında "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik" mövzusunda məşğələlər keçirilir.

Qeyd olunmuşdur ki, "Heydər Əliyev: siyasi liderlikdən ümummilli liderliyə" mövzusunda elmi konfrans da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilən Tədbirlər Planına uyğun olaraq keçirilir.

Qeyd olunmuşdur ki, bütün həyatı boyu Vətəninə, xalqına bağlı olan ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyəti, milli və müstəqil dövlət quruculuğu təcrübəsi müasir tariximizin ən mühüm mərhələsini təşkil edir. Görkəmli dövlət xadimi hansı vəzifədə işləməsindən, harada yaşamasından asılı olmayaraq, ölkəmizin, o cümlədən Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni problemləri ilə yaxından maraqlanmış, muxtar respublikanın hərtərəfli inkişafı üçün zəruri addımlar atmışdır. Azərbaycana rəhbərliyinin ilk mərhələsində ulu öndərin diqqət və qayğısı sayəsində Naxçıvanda fəal quruculuq işləri aparılmış, çoxsaylı müəssisələr yaradılmış, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri üçün yeni binalar inşa edilmiş, yaşayış massivləri, yollar salınmışdır.

Diqqətə çatdırılmışdır ki, ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışı müstəqil dövlətçiliyə qayıdışın əsasını qoymuşdur. Həmin dövrdə Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının xalq deputatı kimi fəaliyyət göstərən dahi rəhbər təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən qərarların qəbul edilməsinə, mühüm islahatların aparılmasına nail oldu. Bu müddət ərzində dövlət atributlarının qəbul olunması, muxtar respublikanın adında dəyişiklik edilməsi, ilk dəfə olaraq 20 Yanvar faciəsinə və Dağlıq Qarabağ probleminə obyektiv qiymət verilməsi, milli ordunun yaradılması, aqrar islahatların həyata keçirilməsi kimi taleyüklü məsələlər öz həllini tapdı. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması, Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlərin görülməsi, diyarımızın tarixi taleyi üçün müstəsna əhəmiyyətə malik Qars müqaviləsinin şərtlərinin beynəlxalq aləmin diqqət mərkəzinə çəkilməsi, idarəetmə strukturlarında ədalətin, demokratiyanın, operativliyin və dinamikliyin təmin olunması, yeni iqtisadi münasibətlərin formalaşdırılması, əhalinin sənaye mallarına, ərzaq məhsullarına ehtiyacının ödənilməsi, enerji təminatı sahəsində böhranlı vəziyyətin aradan qaldırılması üçün layihələrin həyata keçirilməsi, ağıryüklü təyyarələrin qəbulu üçün hava limanının yenidən qurulması, mədəni mühitin dirçəldilməsi kimi böyük tədbirlər Naxçıvanda həyata keçirilən müstəqil dövlətçilik xəttinə layiqli töhfələr idi.

"Ümummilli liderimizin siyasi nüfuzu Azərbaycanın qədim torpağı Naxçıvanı işğaldan xilas etmiş, muxtar respublikada qonşu ölkələrlə xarici iqtisadi əməkdaşlıq münasibətləri qurularaq blokadanın ağır nəticələri aradan qaldırılmışdır", – deyən Rəhman Məmmədov vurğulamışdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskarlıq missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət etmiş, öz müdrik siyasəti və uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuş, müstəqil Azərbaycanın və Naxçıvanın inkişafını təmin etmişdir. Bu gün inkişaf edən və dünya ölkələri içərisində öz layiqli yerini tutan müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ümummilli liderin şah əsəridir.

Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülmüşdür. Onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır.

Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin yubileyləri muxtar respublikada geniş qeyd olunmuş, adı əbədiləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Heydər Əliyev Muzeyinin yaradılması haqqında" 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə Azərbaycanda ilk dəfə olaraq Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində hazırda Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin adını daşıyan Hərbi Lisey, tam orta məktəb, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Saray fəaliyyət göstərir. Şəhər və rayonlarda ümummilli lider Heydər Əliyevin abidələri ucaldılmış, Heydər Əliyev prospektləri salınmışdır. Bununla yanaşı, dahi şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunmuş kitablar nəşr olunur, sənədli filmlər hazırlanır, elmi konfranslar keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov "Heydər Əliyev: siyasi liderlikdən ümummilli liderliyə" mövzusunda keçirilən elmi konfransın da ümummilli liderin siyasi fəaliyyətinin, xalqımız qarşısında xidmətlərinin elmi əsaslarla öyrənilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirmiş, konfransın işinə uğurlar arzulamışdır.

Konfransda AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərlinin "Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və banisidir", Əbülfəz Quliyevin "Heydər Əliyev irsi və ədəbi dilimizin inkişaf məsələləri", Vəli Baxşəliyevin "Heydər Əliyevin dövlətçilik təlimi Azərbaycanın uğurlu və hərtərəfli inkişafının əsasıdır", Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun "Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti", Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun "Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü" və "Naxçıvan" Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin "Heydər Əliyevin siyasi fəaliyyətində xarici siyasət məsələləri" mövzularında çıxışları dinlənilmişdir.

Elmi konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

**Səbuhi HƏSƏNOV**

## Azərbaycanın özü qədər əbədi

# Möhtəşəm vətənpərvərlik təlimi

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamında yeniyetmə və gənclərin hərtərəfli inkişafına, şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərə biləcək əsərlər seçilib mütaliə üçün tövsiyə olunmuşdur. Siyahıda qeyd edilən kitablarda yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi, tarixi keçmişə, milli kökə bağlılığının möhkəmləndirilməsi, siyasi dünyagörüşünün yetkinləşməsi, müstəqil dövlət quruculuğu prosesində iştiraka hazırlanması, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsi və sair kimi çox mühüm vəzifələr öz əksini tapmışdır.***




Oxunması zəruri olan kitabların siyahısı ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 29 dekabr tarixli "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" ilə başlanır. Biz bu əhatəli, konseptual və möhtəşəm müraciətdə Azərbaycan xalqının keçdiyi inkişaf yolunun elmi şəkildə təhlil olunub siyasi-iqtisadi, ideoloji-mədəni aspektlərdən dəyərləndirilməsini, eradan əvvəlki çağlardan başlayaraq bizim dövrümüzə qədər hər bir tarixi mərhələnin qiymətləndirilməsini, eyni zamanda müstəqil dövlət quruculuğu prosesində qarşıda duran gələcək vəzifələrin dəqiqliklə müəyyənləşdirilməsini görürük. Müraciətlə tanış olan hər bir vətəndaş, sözün əsl mənasında, vətənpərvərlik dərsi alır.

Görkəmli dövlət xadimi Heydər Əliyev həmin müraciətində qədim tarixə malik doğma Azərbaycanımızı bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biri kimi səciyyələndirmişdir: ***"Azıx mağarasında tapılmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, Kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".***

Şərq və Qərb sivilizasiyalarının qovuşuğunda yerləşən Azərbaycanın mədəniyyətinin hələ eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəlində özünəməxsus forma və məzmuna malik olduğunu nəzərə çatdıran dahi rəhbər sonrakı mərhələlərdəki hərtərəfli inkişafı da konkret faktlar, təhlillər və ümumiləşdirmələr əsasında dəyərləndirmişdir: ***"İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər".***

Ulu öndər haqlı olaraq diqqəti həm də ona yönəldirdi ki, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidənin varlığı bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyətin mövcudluğundan soraq verir. Xalqımızın əsrlər boyu yaratdığı çoxsaylı ədəbiyyat və mədəniyyət nümunələrində həyat eşqinin, azadlıq və müstəqillik duyğularının təsvirini mühüm faktor kimi qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev bəşər sivilizasiyasında silinməz izlər qoymuş Qətran Təbrizi, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin əsərlərinin ümumbəşəri ideyaların tərənnüMünə, haqqın, ədalətin, humanist idealların bərqərar olmasına xidmət göstərdiyini, Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin və digərlərinin bəşər mədəniyyəti xəzinəsinə verdikləri inciləri, həmçinin dünya elminin inkişafında mühüm xidmətləri olan Nəsirəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Şihabəddin Sührəvərdinin və digər mütəfəkkirlərin fəaliyyətini məxsusi vurğulamış, Azərbaycanda təşəkkül tapmış intibah mədəniyyətinin Şərq, ümumən, dünya intibahında mühüm mövqeyini yüksək qiymətləndirmişdir.

Ulu öndər Azərbaycanın qəhrəmanlıq salnaməsinə, zəngin dövlətçilik ənənələrinə də xüsusi önəm vermiş, Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqlarını böyük vətənpərvərlik məktəbi kimi səciyyələndirmiş, Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin fəaliyyəti sayəsində xalqın Vətən sevgisi və dövlətçilik hissinin daha da inkişaf etdirildiyini nəzərə çatdırmışdır.

Üçüncü minilliyin astanasında xalqına tarixi müraciətində XIX əsrdə xalqımızın üzləşdiyi mürəkkəb ictimai-siyasi proseslərə nəzər salan dahi rəhbər həmin dövrün sosial-iqtisadi və mədəni həyatını da xarakterizə etmiş, xüsusən yüzilliyin ikinci yarısında neft sənayesinin və digər sahələrin inkişafını da mühüm hadisə saymışdır. XIX əsrdə Azərbaycanda müasirtipli təhsil ocaqlarının, o cümlədən qızlar üçün məktəbin fəaliyyətə başlaması, milli mətbuatın, teatrın əsasının qoyulması, maarifçi ədəbiyyatın təşəkkülü və inkişafı, bütün bu hərəkatda Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundov, Məhəmməd Tağı Sidqi, Firudun bəy Köçərli kimi milli ruhlu ziyalıların fədakar əməyi də ulu öndər tərəfindən mühüm amil kimi səciyyələndirilmişdir.

Tariximizin ən önəmli və mürəkkəb dövrlərindən olan iyirminci əsrdə xalqımızı ümummilli lider Heydər Əliyev dörd mühüm mərhələyə ayırmış, hər mərhələnin əhatəli təhlilini, mükəmməl elmi xarakteristikasını vermişdir. Ötən əsrin əvvəlindən 1918-ci ilə qədərki dövrü əhatə edən birinci mərhələdə siyasi-iqtisadi həyatın səciyyəvi xüsusiyyətləri ilə yanaşı, ictimai fikrin, ədəbiyyatın, mətbuatın, mədəniyyətin hərtərəfli inkişafına da nəzər salan ulu öndər bu proseslərdə Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin və başqalarının əvəzsiz xidmətlərini ehtiramla xatırlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünü iyirminci əsr tariximizin ikinci mərhələsi kimi yüksək qiymətləndirən görkəmli siyasi xadim Heydər Əliyev fikrini belə ümumiləşdirmişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır".***

1920-1991-ci illəri əhatə edən sovet dövrünü iyirminci əsr tariximizin üçüncü mərhələsi kimi ətraflı səciyyələndirən ümummilli lider Heydər Əliyev bu mərhələnin sosial, siyasi, iqtisadi və mədəni həyatının əsas inkişaf tendensiyalarını nəzərdən keçirmiş, əldə olunmuş uğurları da, yol verilmiş nöqsanları da obyektiv şəkildə təhlil etmişdir. 1920-1930-cu illərin mürəkkəb şəraiti də, İkinci Dünya müharibəsi dövrünün ağrı-acıları da, həmin müharibədə qazanılmış qələbədə Azərbaycanın xüsusi payı da özünün tarixi-siyasi qiymətini almışdır. 1950-1960-cı illərin sosial-iqtisadi mənzərəsi, nailiyyətlər və geriləmələr barədəki təhlillər də konkret faktlara əsaslanır.

Sovet dövrü tariximizdə 1970-ci illərin xüsusi yeri vardır. Müraciətdə də deyildiyi kimi, Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji 1970-ci illərin bariz əlamətinə çevrildi: ***"Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına getgedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

Nəhayət, iyirminci əsr tariximizin dördüncü mərhələsi 1991-ci ildə dövlət müstəqilliyinin elan olunması ilə başlanır. Müraciətdə bu mərhələnin də ətraflı xarakteristikası verilmişdir. Ozamankı Azərbaycan rəhbərliyinin yarıtmaz fəaliyyəti, bir çox hallarda isə fəaliyyətsizliyi nəticəsində artıq 1993-cü ilin yazında Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir vaxtda xalqın təkidli tələbi ilə respublikaya rəhbər seçilən ulu öndər Heydər Əliyevin müdrik daxili və xarici siyasəti nəticəsində müstəqil Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu.

Ulu öndər müraciətdə ayrıca vurğulayırdı: ***"...daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir".*** Müraciətdə ölkəmizin xarici siyasət sahəsindəki əsas prioritetləri barədə də konseptual prinsiplər öz əksini tapmışdır. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, müstəqil Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm ölkəmizin beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də onun iqtisadiyyatını, elmini, mədəniyyətini daha böyük tərəqqiyə qovuşdurmaq üçün səmərəli istifadə etmək məqsədi daşıyır.

Düşünülmüş daxili və xarici siyasət aparan ulu öndər Heydər Əliyevin möhtəşəm fəaliyyəti nəticəsində qısa müddət ərzində ölkədəki hərc-mərclik, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, haqq işimizin dünyaya çatdırılması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan kontraktın imzalanması və onun gerçəkləşməsi yolunda görülən nəhəng işlər, ölkəmizin beynəlxalq təşkilatlarda layiqincə təmsil olunması, mənafelərinin əzmlə qorunması, müstəqil Azərbaycanın hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyasının qəbulu, mənəvi dəyərlərə ehtiram, mədəni dirçəlişə böyük qayğı, iqtisadiyyatın əsaslı şəkildə yenidən qurulması, bazar münasibətlərinin tənzimlənməsi, aqrar islahatın uğurla aparılması, ümumi daxili məhsulun ciddi artımı, dünya azərbaycanlılarının həmrəyliyinin formalaşdırılması, xaricdə yaşayan soydaşlarla sıx əlaqələrin təşəkkülü, yeni iş yerlərinin yaradılması, əhalinin maddi rifah halının əsaslı şəkildə yaxşılaşdırılması, bir sözlə, müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, əhəmiyyətli yüksəlişin baş verməsi dahi şəxsiyyətin möhtəşəm fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir.

Ulu öndərin müraciəti hər bir vətəndaşın, o cümlədən gəncliyin diqqətini müstəqil dövlət quruculuğu prosesində qarşıda duran vəzifələrə də yönəldir. Bu müraciəti oxumaqla hər bir şəxs həm bizim tarixi keçmişimizin obyektiv mənzərəsini dərk edir, həm də müstəqil ölkənin vətəndaşı kimi vəzifələrini aydınlıqla yəqinləşdirir. Ulu öndər tövsiyə edir ki: ***"Gərək hər bir insan, xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bununla üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, Azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir".***

Ümummilli lider Heydər Əliyev "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə xalqımızın çox qədim və qiymətli irsə malik olduğunu qürurla vurğulayaraq müasir mərhələdə də, gələcəkdə də hər bir yurddaşımız üçün əsl vətənpərvərlik təlimi sayılan müdrik tövsiyələrini belə ümumiləşdirmişdir: ***"Keçdiyimiz yola nəzər salarkən aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".***

Hazırda müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə möhtəşəm uğurlar qazanır. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da blokada şəraitinin yaratdığı çoxsaylı çətinliklərə baxmayaraq, sürətli inkişaf dövrünü yaşayır.

*Ölkəmizdə bu il aprelin 11-də keçirilmiş prezident seçkilərinin nəticələri də Heydər Əliyev ideyalarının əbədiyaşarlığını bütün dünyaya bir daha nümayiş etdirdi. Cəmiyyətin ən müxtəlif təbəqələrinə mənsub milyonlarla seçicinin mütləq əksəriyyətinin etimadını qazanan cənab İlham Əliyevin qələbəsi onun ötən on beş il ərzində müstəqil Azərbaycana böyük uğurla rəhbərlik etməsinin məntiqi nəticəsi, bütövlükdə, Heydər Əliyev ideyalarının təntənəsi, xalqın zəfəri, demokratiyanın qalibiyyətidir.*

**Hüseyn HƏŞİMLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, professor***

## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş müsabiqəyə yekun vurulub

***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin muxtar respublika ifaçılıq, rəsm, inşa yazı müsabiqələrinin yekun tədbiri olub.***



Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki büstünün önünə gül dəstələri düzüblər.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova tədbirdə çıxış edərək görkəmli dövlət xadimi Heydər Əliyevin milli mədəniyyətimizin inkişafı və təbliğindəki misilsiz xidmətlərindən danışıb.

Qeyd edilib ki, ümummilli liderin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin və Naxçıvan Musiqi Kolleci tələbələrinin muxtar respublika ifaçılıq, rəsm və inşa yazı müsabiqəsi gənc nəslin bədii-estetik dünyagörüşünün formalaşmasını, onlarda vətənpərvərlik ruhunun daha da inkişaf etdirilməsini əsas məqsəd kimi qarşıya qoymuşdur.

Çıxışda bildirilib ki, ifaçılıq müsabiqəsində müxtəlif musiqi ixtisasları üzrə təhsil alan şagirdlər, həmçinin xalq çalğı və nəfəsli alətlər orkestrləri, skripkaçalanlar ansamblı da öz bacarıqlarını nümayiş etdiriblər. Müsabiqə 2 turdan ibarət olub. İlk turda 427 fərdi ifaçı və 40 kollektiv iştirak edib. Müsabiqədə iştirakçıların ifaları 10 ballıq sistem üzrə qiymətləndirilib. Münsiflər heyətinin qərarına əsasən II turda 283 fərdi ifaçı iştirak edib. Müsabiqədə bir sıra ixtisaslar üzrə 2 yaş qrupu müəyyən olunub, ayrı-ayrı nominasiyalar üzrə mükafatlar təsis edilib. Nəticə etibarilə, 37 nəfər birinci, 52 nəfər ikinci, 53 nəfər isə üçüncü dərəcəli diplomlara, digər iştirakçılar da diplom və fəxri fərmanlara layiq görülüblər.

Sonra müsabiqənin mükafatlandırma mərhələsi başlayıb.

Müsabiqədə Ordubad Şəhər Uşaq Musiqi Məktəbi I, Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi II, Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi isə III dərəcəli diploma layiq görülüb, eyni zamanda "İlin məktəbləri" adını da qazanıblar.

Naxçıvan Musiqi Kolleci isə müsabiqədə fəal iştirakına görə fəxri fərmanla təltif edilib.

Sonra yekun konsert olub.

**Əli RZAYEV**

***Doğma Azərbaycanımızın mərd oğul və qızları 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbə qazanılmasında fəal iştirak etmişlər. Xalqımızın mərdliyinin və igidliyinin ifadəsi idi ki, minlərlə azərbaycanlı müharibənin başlandığı ilk gündən döyüş cəbhəsinə yollanmışdı. Arxa cəbhədə qalanlar isə yaşlı kişilər və qadınlar idi. Onlar döyüşə gedənləri əvəz etmək üçün bütün qüvvələri ilə çalışırdılar. Bu da qanlı-qadalı döyüşlərdə vuruşan, qələbə əzmi ilə düşmənə ciddi zərbələr vuran igid eloğullarımıza mənəvi dəstək idi.***

# Azərbaycanlılar 1941-1945-ci illər müharibəsində qazanılan tarixi qələbədə böyük qəhrəmanlıqlar göstərmişlər

Müharibəyə cəlb olunmuş keçmiş müttəfiq respublikalar içərisində o zaman istər ümumi əhaliyə nisbətən əsgər sayına, istərsə də döyüşən əsgərlərin təltif olunması faizinə görə Azərbaycan ən öncül sıralarda dayanırdı. Belə ki, müharibədə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhədə vuruşmuş, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif edilmişdir. Azərbaycandan 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülmüşdür.

O odlu-alovlu illərdə fədakarlıq göstərən azərbaycanlılardan ibarət təşkil edilmiş 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçmiş, soydaşlarımızın təxminən yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmışdır. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstərmişlər. Bu da qürurvericidir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Müharibənin başlandığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanmışdı. Bütövlükdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollananların hər iki nəfərindən biri – 16 minə yaxın naxçıvanlı həlak olmuşdur. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – "Sovet İttifaqı Qəhrəmanı" adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir.

1941-1945-ci illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçilmişlər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə almış, gecəni gündüzə qataraq çalışmış, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstərmişlər.

Böyük qələbənin əldə edilməsində Azərbaycan nefti xüsusi rol oynamışdır. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 80 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Azərbaycan neftçiləri gecəgündüz neftin çıxarılması, emal olunması və çətin yollarla cəbhəyə göndərilməsi ilə məşğul idilər. Onların hər biri bu yolda canlarını qoyaraq faşizm üzərində qələbə çalınmasında səy göstərirdi. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neftkimyası sahəsində etdiyi ixtiralar isə ümumilikdə, sovet Azərbaycanının o dövrdə qələbəsi idi.

Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növdə silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Ona görə də 1941-1945-ci illərdə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətlərini, habelə arxa cəbhədəki fədakarlıqlarını heç vaxt unutmaq olmaz. Bu sırada naxçıvanlıların da böyük əməyi qeyd edilməlidir. Muxtar respublikanın sakinləri 1941-1945-ci illərdə müdafiə fonduna 180 milyon 89 min manat nağd pul, 12 kiloqram qızıl, gümüş, 160 min dəstdən artıq isti paltar, 10 mindən artıq bağlama göndərmişlər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qələbənin qazanılmasında xidməti olan insanlara öz qayğısını heç vaxt əsirgəməmişdir. Ötən əsrin 70-ci illərində veteranlara göstərilən diqqət və qayğı bu dahi şəxsiyyət siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra unudulmuş, müharibə iştirakçılarına və arxa cəbhədə çalışan veteranlara laqeyd münasibət göstərilmişdir. Hətta ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hakimiyyətdə olanlar 9 may Qələbə Gününü qeyd etməmək barədə rəsmi tapşırıq da vermişdilər. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 may respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilmişdir.

Qələbə uğrunda mübarizədə fəallıq göstərən, sağlamlığını itirən, doğma yurda sinəsi orden və medallarla qayıdan həmyerlilərimizin bizim üçün qürur və iftixar mənbəyi olduğunu dəfələrlə vurğulayan ümummilli liderimiz deyirdi: ***"Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".***

1941-1945-ci illər müharibəsində igidlik göstərən müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. Ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Ölkə Prezidentinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2018-ci il 20 aprel tarixli Sərəncamı bu təbəqədən olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti təzahürüdür. Sərəncama əsasən muxtar respublika üzrə 928 nəfərə birdəfəlik maddi yardım ödənilmişdir. 25 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 manat, 898 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə 500 manat məbləğində birdəfəlik müavinət ödənilmişdir.

Dövlət başçısı demişdir: ***"Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik. Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar".***

1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətlərini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini Azərbaycan xalqı heç vaxt unutmayacaqdır. Bugünkü və gələcək nəsil üçün nümunə olan həmin qəhrəmanların şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün cəmiyyətimizdə müharibə veteranlarına böyük hörmət və ehtiram vardır. Onların döyüşlərdə göstərdikləri rəşadət, müharibədən sonrakı bərpa və quruculuq illərində çəkdikləri zəhmət Vətənə xidmət nümunəsi – həyat dərsidir. Vətəni sevmək, Vətən torpağını qorumaq və mənsub olduğu ölkəni inkişafa qovuşdurmaq dərsidir. Gənc nəsil bu dərsi mənimsəyərək özündən sonrakı nəsillərə ötürməli, nəsillər arasındakı varislik ənənələri davam etdirməlidir".***

**"Şərq qapısı"**

## "Azərbaycan səhiyyəsində yüksək texnologiya və innovasiyaların tətbiqi" mövzusunda elmi-praktik konfrans



*Naxçıvan Muxtar Respublika Xəstəxanasında ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş "Azərbaycan səhiyyəsində yüksək texnologiya və innovasiyaların tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirilib.*

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov tədbiri giriş sözü ilə açaraq bildirib ki, çoxəsrlik Azərbaycan tarixində misilsiz xidmətləri ilə əbədiyaşarlıq qazanmış ulu öndər Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazıb. Xalqımızın ümummilli lideri tərəfindən əsası qoyulan və uzunmüddətli dövrə, uğurlu strategiyaya əsaslanan bu alternativsiz inkişaf yolunun sədaqətlə davam etdirilməsi digər sahələrlə yanaşı, əhalinin sağlamlığının qorunması, tibbi xidmətin səviyyəsinin yüksədilməsi, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm rol oynayır.

Muxtar respublika rəhbərliyinin qayğı və diqqəti nəticəsində bu gün səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla, yeni texnologiyalarla müayinə və müalicə işləri aparılır. Yüksəkixtisaslı həkimlər angioqrafiya, kompüter tomoqrafiyası, rəqəmsal rentgenoqrafiya, mammoqrafiya, hemodializ, nüvə maqnit rezonansı və bir çox müasir aparatlarla xəstələrə xidmət edir, müstəqil şəkildə TUR, açıq ürək, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları yerinə yetirirlər.

Konfransda çıxış edən Milli Məclisin deputatı, Azərbaycan Respublikası Ürək və Sağlamlıq İctimai Birliyinin sədri, tibb elmləri doktoru Rəşad Mahmudov ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə səhiyyə sisteminə xüsusi diqqət yetirildiyini xatırladıb. Bildirilib ki, səhiyyənin modernləşdirilməsi, infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması və ən müasir avadanlıqlarla təchiz edilməsi, səhiyyənin informasiyalaşdırılması, bu sistemin yeni dövrün tələblərinə uyğunlaşdırılması əhalinin sağlamlığının etibarlı təminatına geniş imkanlar açır.

Rəşad Mahmudov tibbi xidmətin əhatə dairəsinin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə ölkə başçısının tapşırıqlarının, dövlət proqramlarının xüsusi rolundan bəhs edib, onların icrasının təmin olunmasını hər bir həkim və tibb işçisinin mühüm və şərəfli vəzifələri kimi dəyərləndirib.

Sonra "Bakı" Medikal Plaza Mərkəzi Pediatriya və neonatologiya, yenidoğulmuşların reanimasiyası şöbəsinin müdiri Erkin Rəhimov "Neonatal dövrdə özünü büruzə verən irsi mübadilə pozuntuları (metobolitik) xəstəlikləri", Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun radioloqu Azər Fərəcov "Prenatal diaqnostika: fetal ultrasonoqrafiyada nə etmək mümkündür", Milli Onkologiya Mərkəzinin onkoloqu Fuad Novruzov "Nüvə təbabəti və molekulyar diaqnostika", Mərkəzi Neftçilər Xəstəxanasının otolarinqoloqu, LOR cərrahı Tural Hüseynov "Koxlear implantasiya", "Bakı" Ürək Mərkəzinin rəhbəri, ürək-damar cərrahı Rəşad Mahmudov "Ürək-damar xəstəliklərində cərrahiyyənin nailiyyətləri və yeni perspektivləri" mövzularında məruzələr ediblər.

Məruzələr videosüjetlər – müayinə və müalicə proseslərindən görüntülərlə müşayiət olunub.

Sonda müzakirələr aparılıb, suallar cavablandırılıb.

Səhiyyə naziri Niyazi Novruzov konfransa yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## *"Euronews"* kanalında Möminə xatın türbəsi ilə bağlı reportaj yayımlanıb




Mayın 7-də "Euronews" kanalında Möminə xatın türbəsi ilə bağlı "Möminə xatın türbəsi – memarlıq xəzinəsi" başlıqlı 1 dəqiqə 30 saniyəlik reportaj yayımlanıb. Reportaj bu həftə ərzində hər gün iki və ya üç dəfə olmaqla, 12 dildə yayımlanacaq.

Reportajda qeyd olunur ki, həftə ərzində Azərbaycanda çəkilən və çox təsirli quruluşa malik olan bir videoçarxa baxma vaxtıdır. Bu, Naxçıvan memarlığının nümunəsi – Möminə xatın türbəsidir. 1186-cı ildə yerli siyasi həyatda mühüm rol oynayan Möminə xatının şərəfinə tikilmişdir. Memar Əcəmi Naxçıvani abidədə müxtəlif həndəsi ornament və naxışlar yaratmış, abidə dünya memarlığının şah əsərlərinin sırasına daxil olmuşdur.

"26 metr yüksəklikdə olan türbənin ilk vaxtlar 9 metr hündürlükdə günbəz formalı çardağı olmuşdur", – deyən müxbir Qalina Polonskaya mənzərəli diyara səfəri zamanı abidə haqqında bildirib ki, Möminə xatın öz həyat yoldaşına, dövrün güclü yerli hökmdarı Şəmsəddin Eldənizə müdrik məsləhətlər verirdi. Ölümündən sonra Şəmsəddin Eldəniz onun məzarı üzərində abidə tikilməsini əmr etdi. Ancaq o da tezliklə vəfat etdi və türbənin tikintisini oğlu başa çatdırdı. Ümumilikdə, türbənin tikintisi 11 il davam edib.

Tarixçi Fəxrəddin Səfərli bildirib ki, "Möminə xatın çox ağıllı və tədbirli qadın idi. O, dövlətin idarə olunmasında tövsiyələr verirdi və dövlət aparatında böyük nüfuza malik idi. Bu səbəbdən də onun şərəfinə belə möhtəşəm bir abidə ucaldıldı".

Türbədəki kitabələrdən birində deyilir: "Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar".

## Gənclər üçün yeni formalar alınıb

Muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması daim diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman infrastrukturu gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır. İdmanın kütləviliyinə nail olunması, yeniyetmə və gənclərin idmana cəlbi istiqamətində məqsədyönlü işlər görülür, müxtəlif növlər üzrə çoxsaylı yarışların təşkili davam etdirilir. Bütün bunların nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, bu sahədə uğurların sayı daha da artır.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi yeni-yeni nailiyyətlərin əldə edilməsi üçün gənclərlə bağlı bir sıra tədbirlər həyata keçirir. Hər il mütəmadi keçirilən "Şahin" hərbi-idman oyunlarında iştirak edəcək gənclər üçün nazirlik tərəfindən 224 dəst yeni forma alınıb. Həmin formalar yüksək dözümlülüyü və keyfiyyəti ilə seçilir. Artıq muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən Gənclər və İdman idarələri vasitəsilə "Şahin" hərbi-idman oyunlarının iştirakçıları idman geyimləri ilə təmin olunublar.

Yeri gəlmişkən qeyd edək ki, "Şahin" hərbi-idman oyunlarının Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyinin qalibi olan Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası artıq Azərbaycan çempionatına yollanır. Naxçıvanı təmsil edəcək komandanın üzvləri yarışlarda həmin formalarda iştirak edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

## “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika turnirinə yekun vurulub



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş futbol üzrə “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika turnirinə yekun vurulub.***

Naxçıvan Muxtar Respublika Stadionunda keçirilən final qarşılaşmasında “Araz-Naxçıvan” və Naxçıvan Dövlət Universitetinin komandaları üz-üzə gəliblər.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, Azərbaycanda idman ənənələrinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. İdman həm ölkənin şöhrətini ucaldan, həm də insanların sağlamlığına xidmət edən bir sahədir. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bu sahədə həyata keçirilən dövlət siyasəti nəticəsində muxtar respublikamız mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada gənclərlə iş müasir dövrün tələbləri səviyyəsində qurulub, güclü idman infrastrukturu yaradılıb.

Azad Cabbarov vurğulayıb ki, Naxçıvanda bütün idman növləri kimi, futbolun da inkişafı diqqət mərkəzində saxlanılır və bu istiqamətdə yeni-yeni nailiyyətlər əldə olunur. Muxtar respublikanın təkcə şəhər və rayon mərkəzlərində deyil, həmçinin kəndlərində də gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün idman zalları, meydançalar tikilir. Məqsəd yeniyetmə və gənclərin sağlam böyüməsi üçün onları idmana daha fəal cəlb etməkdən ibarətdir.



Nazir hər iki komandanı həlledici qarşılaşmada gözəl və baxımlı oyun sərgilədiklərinə görə təbrik edib.

Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev çıxışında qeyd edib ki, bu gün yaradılan müasir idman infrastrukturu respublikamızda beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə geniş imkanlar açır. Son illər Naxçıvan Muxtar Respublikasında da bədən tərbiyəsinin və idmanın inkişafına göstərilən dövlət qayğısı nəticəsində idmançılarımız ölkədaxili və beynəlxalq turnirlərdə mütəmadi olaraq uğurlar əldə edirlər. Dövlətimizin gənclərə və idmana göstərdiyi diqqət nəticəsində muxtar respublikada yeni idman qurğuları tikilərək gənclərimizin istifadəsinə verilib. Təqdirəlayiq haldır ki, bir çox kəndlərimizdə də futbolun inkişafı üçün hərtərəfli şərait yaradılıb.

Oyuna gəlincə, 90 dəqiqəsi qolsuz başa çatan görüşün əlavə vaxtında “Araz-Naxçıvan” komandası rəqib qapısından üç qol keçirib və “Heydər Əliyev kuboku” turnirinin qalibi olub.

Sonda hər iki komandaya diplom, kubok və hədiyyələr təqdim edilib.

## Sualtı rəsm sərgisində iştirak edən ilk azərbaycanlı qadın rəssam

*Bu barədə eşidəndə nə qədər çox qürur duyduq, iftixar hissi keçirdiksə, bir o qədər də təəccübləndik. Əksər insanların, xüsusilə də qadınların sudan qorxduqları halda, bu zərif xanımın dənizin altında rəsm çəkməsinə, həqiqətən, təəccüblənməmək mümkün deyil. Lakin Azərbaycan qadınlarının zərifliyi ilə yanaşı, cəsurluğunu da xatırlayanda bunu təbii qəbul etdik. Həmin cəsur qadın Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Naxçıvan Dövlət Universitetinin müəllimi Həbibə Allahverdiyevadır.*





Özünəməxsus çalarlarla rənglər dünyası yaradan bu xanım rəssamın bir-birindən fərqli, gözoxşayan əsərlərindən ibarət ilk sərgiləri təhsil aldığı və bu gün çalışdığı Naxçıvan Dövlət Universitetində 2002-ci və 2008-ci illərdə təşkil olunub. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Payız düşüncələri”, 2017-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Rənglərdə zamanın təcəssümü” və Bakı şəhərində “Nuh yurdunun rəngləri” adlı iki sərgisi açılıb.

Kim deyərdi ki, dünyanın min bir rəngini fırçasına həmdəm edib 100-dən artıq sənət əsəri yaradan bu qadının Ağ dənizlə Egey dənizinin birləşdiyi yerdə suüstü və sualtı gözəllikləri əks etdirən sonuncu 4 əsəri fərqli bir sərgini bəzəyəcək və onun adını dünyada su altında rəsm çəkən ilk qadınlardan biri – Naxçıvandan olan azərbaycanlı qadın kimi həm də rəssamlıq tarixinin səhifələrinə yazacaqdı? Yaşadıqlarımız alın yazımızdır. Həbibə xanımın Türkiyə Respublikasının Muğla vilayətinin Fəthiyə əyalətində keçirilən “Dənizlərimiz və rənglərimiz” adlı beynəlxalq sualtı rəsm sərgisində Azərbaycandan yeganə qadın kimi iştirakı da onun taleyinə başlıca sənət uğuru kimi yazıldı.

Aprelin 27-dən mayın 3-dək davam edən tədbirdə 13 rəssam iştirak edib. Sərgidə Türkiyə ilə yanaşı, Gürcüstan və Azərbaycan rəssamları da təmsil olunublar. Azərbaycandan Ramiz Abbasov Bakı şəhərindən, Həbibə Allahverdiyeva, Həbib Allahverdiyev, Murad Nurlu və Arzu Novruzov isə Naxçıvandan sərgiyə qatılıblar. Türkiyəli rəssam Minə Sarmışın təşkil etdiyi və dənizin altında ilk dəfə rəsm çəkən 85 yaşlı rəssam Ekmel Totrakanın köməkliyi ilə reallaşan bu tədbirin məqsədi dənizlərdən daha səmərəli istifadə edilməsinin, ekoloji təmizliyin və burada yaşayan canlıların qorunmasının əhəmiyyətini, suların altında heyranedici mənzərələrin olmasını rəssam fırçasının “dili” ilə bəşəriyyətə çatdırmaq olub. Tədbirdə iştirak edən 13 rəssamdan 9-u dənizin dibinə enə bilib və bu fərqli aləmin gözəlliklərini su altında rəsm çəkmək üçün yağlı boya ilə xüsusi toxunmuş kətan üzərinə köçürüblər.

Bu tədbirdən Həbibə Allahverdiyevanın hansı təəssüratlarla qayıtdığını öyrənmək məqsədilə onunla görüşdük. Rəssama ilk sualım onun suyun altına necə enməsi ilə bağlı oldu. Həbibə xanım dedi: – Bu, həqiqətən, dənizsiz bir yerdə doğulub-böyüyən adam üçün çox çətin idi. Bizə əvvəlcə 3-4 günlük təlimlər keçdilər. Hər rəssam üçün ayrılmış bir dalğıc onu dənizin dibinə endirdi, burada nə edəcəyini, suda danışmaq mümkün olmadığı üçün istəyini işarələr vasitəsilə necə bildirəcəyini öyrətdilər. Əslində, dənizə enməyə qorxanlar su üzərində – gəmidə rəsm çəkə bilərdilər. Azərbaycanlı rəssamların hamısı suya endilər. Düzü, əvvəlcə çox qorxurdum, suya enmək fikrində deyildim. Lakin dənizin dibindəki gözəllikləri görmək istəyi məndə xüsusi maraq yaratmışdı. Ona görə də özümdə cəsarət taparaq “bunu hökmən etməliyəm”, – dedim. Dənizin dibinə enəndə gördüyüm mənzərələr qorxularımı tamamilə yox etdi. Elə bir əsrarəngiz aləmə düşmüşdüm ki, ancaq onu görür, düşünür və kətana köçürmək istəyirdim.

Həbibə xanımdan dənizin dibindəki bitki və canlı aləmi barədə soruşduqda o, həqiqətən, təbiətin bizlərə verilən bir xəzinə olduğunu bildirdi. Torpağın üzərində bir aləmin, dənizin dibində isə başqa bir aləmin olduğunu vurğulayaraq burada insanın fərqli duyğular yaşadığını qeyd etdi: – Məsələn, dənizə enərkən günəş şüaları ilə suların yaratdığı əsrarəngiz rəng məni valeh etdi, ilk dəfə idi belə gözəl bir rəng görürdüm. Burada qayalıqlar, yaşıllıqlar, möcüzəli dəniz canlıları, rəngbərəng balıqlar sənə əlinlə toxunacaq qədər yaxın idi. O təbiətin özü vadar edir ki, onu olduğu kimi kətana köçürərək insanlara göstərəsən.

Bəli, Həbibə xanım qarşılaşacağı bütün çətinliklərə rəğmən yüz qadından birinin edə biləcəyi cəsurluqla dənizin dibinə enərək dənizin üstündə və altında bir-birindən gözəl mənzərələrin əks olunduğu 4 yeni əsərini elə dənizin altında təşkil olunan sərgidə nümayiş etdirib. Və bununla da, həyatında böyük bir uğura imza atıb. O, bu barədə belə deyir: – Dənizin altında rəsm çəkmək məndə nə qədər fərqli hisslər yaratdısa, əsərlərimi burada sərgiləməklə başqa bir duyğu yaşadım. Bu, mənim suyun altında mübarizəmin qələbəsi idi.

Əsərlərində Vətənimizin təbiəti ilə yanaşı, tarixini, mədəniyyətini, etnoqrafiyasını canlandıran harmoniyası ilə təsvir edən bu xanımın ürəyi Vətən sevgisi ilə doludur. Möhtəşəm dənizin, qorxulu, hələ tamamilə isinməyən suyunun üşüdücü təsiri altında yaratdığı təbiət mənzərəsində yer alan kiçik bir balığın üzərində üçrəngli bayrağımızı işləməsi bir rəssamın yox, bir vətəndaşın Vətəninə böyük sevgisinin təcəssümüdür.

Həbibə Allahverdiyevanın dedikləri: – Bizi qoynunda əzizləyərək böyüdən, doğmalığı, gözəlliyi ilə ruhumuzda yaşayan Vətən ən gözəl bir tablo kimi, harada oluruqsa, olaq, qəlbimizdə, gözlərimiz önündədir. Dünyanın istənilən yerində qazandığımız uğurlarla qayıdıb sevincimizi Vətəndə bölüşmək istəyirik.

Bu gün Həbibə xanım da bu böyük uğurunun sevincini burada öz doğmaları ilə bölüşməkdədir. Biz də onu təbrik edir, yaradıcılığında yeni uğurlar arzulayırıq.

## Bilik yarışmasının qalibləri müəyyənləşib

Babək qəsəbə 2 nömrəli tam orta məktəbdə rayonda fəaliyyət göstərən tam orta məktəblərin komandaları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş “Heydər Əliyev və Azərbaycan” adlı bilik yarışması keçirilib.

Yarışda hər komandada 4 nəfər olmaqla, 5 komanda mübarizə aparıb. Komandalara ümummilli liderin həyatı və siyasi fəaliyyəti ilə bağlı 50 sual yazılı test formasında təqdim olunub və sualları cavablandırmaq üçün onlara 60 dəqiqə vaxt verilib.

Bilik yarışmasının yekununa əsasən Babək qəsəbə 2 nömrəli tam orta məktəbin “Şuşa” komandası qalib adını qazanıb. Şəkərabad kənd tam orta məktəbin “Xəzər” komandası ikinci, Nehrəm kənd 1 nömrəli tam orta məktəbin “Zirvə” komandası isə üçüncü olub.

Sonda mükafatlandırma olub.

## Beynəlxalq Şahmat Festivalının 7-ci turu başa çatıb



Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan “Naxçıvan-2018” Beynəlxalq Şahmat Festivalı sona yaxınlaşmaqdadır. Artıq 7-ci turun oyunları başa çatıb.

“A” qrupunda azərbaycanlı qrossmeysterlər Eltac Səfərli (2657) və Nicat Məmmədov (2602) üz-üzə gəlib. Görüş “sülh”lə yekunlaşıb. Eyni xala malik olan hollandiyalı qrossmeyster Sergey Tiviyakovla (2569) türkiyəli qrossmeyster Sanal Vahapın (2505) da görüşü böyük marağa səbəb olub. Qara taxtada mübarizə aparan türk şahmatçı məğlub olub. Azərbaycanlı qrossmeysterlər Fərid Abbasov (2531) və Qədir Hüseynov (2654) bu turda müvafiq olaraq almaniyalı qrossmeyster İqor Xenkin (2557) və iranlı qrossmeyster Qaem Maqami Ehsanla (2531) qarşılaşıblar və hər iki görüşdə şahmatçılar yarı xala razı olublar. Digər maraqla gözlənilən görüşlərdə qazaxıstanlı beynəlxalq usta Pak Yevgeni (2390) ispaniyalı Oleq Kornyovla (2533), ukraynalı qrossmeyster Vitaliy Bernadskiy (2589) israilli qrossmeyster İlia Smirinlə (2592) mübarizə aparıblar. Qazaxıstanlı şahmatçı qələbəni bayram etdiyi halda, digər görüşdə qalib müəyyənləşməyib. Turnirin ən reytinqli şahmatçısı, ukraynalı qrossmeyster Anton Korobov (2678) isə azərbaycanlı beynəlxalq usta Məhəmməd Muradlının (2417) müqavimətini qıra bilməyib və yarı xalla kifayətlənib.

Naxçıvanlı FİDE ustalarımız Pərviz Qasımov (2329) və Sadiq Məmmədov (2293) müvafiq olaraq iranlı beynəlxalq usta Musavi Seyid Xəlil (2460) və belaruslu qrossmeyster Aleksey Aleksandrovla (2594) mübarizə aparıblar. Sadiq yarı xal qazandığı halda, Pərviz məğlubiyyətlə barışıb. Qrossmeyster Urfan Sevdimalıyev (2397) isə beynəlxalq usta Gülnar Məmmədovadan (2360) üstün olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2350) isə FİDE ustası Gövhər Beydullayeva (2176) ilə görüşdə ağ-qara taxtanı məğlub tərk edib.

Hazırda turnir cədvəlinə 5,5 xalla hollandiyalı qrossmeyster Sergey Tiviyakov başçılıq edir. Onu 5 xalla 3 zəka sahibi izləyir.

Beynəlxalq Şahmat Festivalının “B” qrupunun son turundan sonra hazırda turnir cədvəlinə yalnız bir zəka sahibi başçılıq edir. Belə ki, son 7-ci turda Samir Davidovu (2216, Xaçmaz) məğlub edən Ağdam şahmatçısı Fariz Əhmədov (2146) 6,5 xalla liderliyə yüksəlib. 9 zəka sahibi isə onu 5,5 xalla izləyir.

“C” qrupunun lideri isə Naxçıvan şahmat məktəbinin yetirməsi Zahid Allahverdiyevdir (1398). O, son turda Bakı təmsilçisi Əli Zuqanova (1299) qalib gəlməklə, xallarının sayını 6,5-ə yüksəldib. Sonrakı 4 pillədə qərarlaşanların isə 6 xalı var. Onlar arasında muxtar respublikanı təmsil edən iki zəka sahibi – Uğur Həsənli və İlkin Qəbulov da var.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Əlişova Aidə Mehman qızının adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 343